

# DARVAZDAN GƏLƏN MÜDRİK

Mənim Mədəd müəllimlə ilk tanışlığım 2020-ci ilin yay aylarında olmuşdur. O zaman mənim atamın dünyasını dəyişməsindən iki il ötürdü. Bu iki il ərzində hər zaman, hər yerdə gözlərim atamı axtarırdı, elə bilirdim elə indicə atam hardansa gələcək, bu iki ildə heç cürə atamın ölümünə inanmırdım. ünlərin bir günü yaşadığım Bakı şəhəri, Xətai rayonun Əhmədli qəsəbəsinin Radio zavod deyilən ərazisində yerləşən Kapital bankın önündə dayanmışdım, anidən dönüb ətrafa baxanda gözlərimə inanmadım, elə bildim ki, atam gəlir. Bir az kənardan gələn biri məndə qeyri-adi şaşkınlıq yarandı. Çünki professor Mədəd Çobanlı atama həddindən çox bənzəyirdi, çox həyacanlı görkəmdə ona yaxınlaşıb diqqətlə üzünə baxdım gözlərimə inana bilmədim, lakin özümü toplayıb, yaxınlaşıb salamlaşdım. Açığı deyim ki, o da mənə çox diqqətlə baxırdı, bəlkə mənim belə həyacanlı olduğumu hiss edirdi. O zaman onunla salamlaşmadan başqa heç bir söz danışmadıq. Amma mənim içimdə çox həyacan var idi, özlüyümdə düşünürdüm aman Allahım insan da bu qədər bir-birini oxşar olarmı, mən o insanda hər tərəfli atamın simasını gördüm və heç gözlərimə inanmadım, çox çaşqın vəziyyətdə oldum. O zaman ona bir parça şeir də həsr etmişdim:

*Bu gün mən bir ağsaqqal Ata gördüm,*
*Mən həm çox sevindim, həm də kövrəldim.*
*Atama bənzəyir Mədət müəllim,*
*Mən həm çox sevindim, həm də kövrəldim.*

Ondan öncə professor Mədəd Çobanlı haqqında çox eşitmişdim. Onun böyük alim olması haqqında hər yerdə və həmişə də qəlbimdən keçirirdim ki, kaş elə olaydı mən bu böyük alimlə tanış olardım, onun hikmətli söhbətlərini dinləyərdim, səsini, sözünü eşidərdim. Xoşbəxtlikdən mənim bu istəyim öz yerini aldı. Günlərin bir günü işlə əlaqədar onların evinə getməli oldum. Orada o ailə ilə və doğma atama çox bənzəyən və demək olar ki, atamın oxşarı olan böyük alim, gözəl insan və gözəl ata olan professor Mədəd müəllimlə yaxından tanış oldum. O zaman mən o insanda bütün insanı keyfiyyətləri gördüm, onun da mənə qarşı ata münasibətini, ata qayğısını, ata nəvazişini hiss etdim.

Taleyin qismətindən qaçmaq olmaz deyiblər, bu doğrudur. Yenidən bir il sonra mən yenə də işlə bağlı o ailə ilə çox yaxından tanışlığımız davam etdi. Demək olar ki, mən o evə, o ailə ilə hər gün görüşürdüm, hətta o ailə ilə o qədər bağlılıq vardı ki, Mədəd müəllim məni öz qızı kimi qəbul etmişdi və mənə böyük qızım deyirdi, hər məni görəndə doğma atam kimi, doğma övladı kimi köksünə sıxardı və tez-tez gəl, sən gələndə elə bilirəm görə bilmədiyim bütün yaxınlarımı görürəm. Mən onunla saatlarla söhbət edirdim, onda o qədər nəciblik, insani keyfiyyətlər vardı, insanın ruhu dincəlirdi. Həm də atamın qoxusunu, atamın nəfəsini ondan alırdım. Hiss edirdim ki, onada mənimlə ünsiyyətdə olmaq xoş təsir bağışlayır. Professor Mədəd Çobanlı dünyasın dəyişəndə elə bildim atamı yenidən itirdim, mən doğurdan da atamı yenidən itirdim. Çünki mən ona ata deyirdim və elə indi də atam deyirəm, ona yazdığım bütün şeirlərimi atam deyərək yazmışam, yazıram və yazacam. O dünyadan köçən gündən 40 gününə kimi hər gününə bir bayatı - ağı janrında şeirlər yazdım, qəlbimin ağrısını vərəqlərlə paylaşdım və ondan təsəlli aldım. Onun dünyadan köçdüyü 10 aydır, hər köçdüyü tarix olan günü onun üçün ağı, bayatı janrında şeirlə onun adını atam deyərək anıram.

Bu günlərdə yuxuma gəlmişdi yenə də atam kimi mənə qızım deyərək müraciət edirdi, elə bil heç dünyasın dəyişməmişdi, çox gümrah və təravətli idi, sanki canlı idi.

Allah qəni-qəni rəhmət eləsin, məkanı cənnət, ruhu şad olsun.

Öz övladı kimi bildiyi və sevdiyi



*Məlahət QULİYEVA*

**Redaksiyadan:** *Qəzetimizin ötən sayında bu yazı texniki səhv olaraq başqa şəxsin fotosu ilə təqdim edilmişdir. Səhvə görə oxuculardan üzr istəyirik.*